**Əməkdaşlıq fəaliyyətləri**

- 2026-cı il 17 fevral tarixində Birləşmiş Ərəb Əmirliklərinin iqlim dəyişikliyi və ətraf mühit nazirinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İqlim Dəyişikliyi və Ətraf Mühit Nazirliyi arasında "Heyvan sağlamlığı və qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır. Həmin səfər çərçivəsində keçirilmiş görüşdə qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti altında olan ixracyönümlü məhsulların Birləşmiş Ərəb Əmirlikləri bazarına çıxış imkanlarının genişləndirilməsi ətrafında ətraflı fikir mübadiləsi aparılmış, BƏƏ sahibkarları Azərbaycandan müxtəlif növ kənd təsərrüfatı məhsullarının idxalında maraqlı olduqlarını bildirmişlər. Görüşün nəticəsi olaraq Agentlik tərəfindən aidiyyəti ixracatçı assosiasiyalara müvafiq məlumat verilmiş, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin iqlim dəyişikliyi və ətraf mühit nazirinə təşəkkür məktubu göndərilərək ölkəmizin ixrac potensialına malik məhsullarının siyahısı qarşı tərəfə təqdim edilmişdir.
- Bununla yanaşı, iki ölkə arasında baytarlıq nəzarətində olan məhsulların idxal və ixracı üzrə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə bir sıra beynəlxalq baytarlıq sertifikatları razılaşdırılmışdır. Hazırda ölkəmizdən Birləşmiş Ərəb Əmirliklərinə ət və ət məhsulları, dəniz və şirin su heyvanları və onların məhsulları, süd və süd məhsulları, bal və arı məhsulları, həmçinin süfrə yumurtaları və yumurta məhsullarının ixracı üçün müvafiq sertifikatlar razılaşdırılmışdır.
- Birləşmiş Ərəb Əmirliklərinin qida təhlükəsizliyinə nəzarət sisteminin beynəlxalq standartlara və Azərbaycan Respublikasının milli qida təhlükəsizliyi sisteminə uyğunluğu nəzərə alınaraq, aparılmış təhlillərin nəticələrinə əsasən, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn tələblərə uyğun olaraq Agentlik tərəfindən Birləşmiş Ərəb Əmirliklərinin qida təhlükəsizliyinə nəzarət sisteminin ekvivalentliyinin tanınması barədə qərar qəbul edilmiş və bu barədə 2025-ci il 7 avqust tarixli məktubla qarşı tərəfin aidiyyəti qurumu məlumatlandırılmışdır.
- 2024, 28 noyabrda AQTA sədri Qoşqar Təhməzli ilə Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Əl Bluşi arasında görüş keçirilmiş, əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparılmışdır.
- 2023, 2 iyunda AQTA və Birləşmiş Ərəb Əmirliklərinin İqlim Dəyişikliyi və Ətraf Mühit Nazirliyi nümayəndələri arasında virtual formatda görüş təşkil olunmuşdur. Görüşdə Tərəflər arasında heyvan və bitki sağlamlığı da daxil olmaqla qida məhsullarının idxal-ixracı əməliyyatları, sertifikatların qarşılıqlı razılaşdırılması, 2023-cü il 1 yanvar tarixindən qüvvəyə minən "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bağlı müzakirələr aparılmışdır.

- 2021, 10 martda AQTA ilə Birləşmiş Ərəb Əmirlikləri İqlim Dəyişikliyi və Ətraf Mühit Nazirliyinin nümayəndə heyətləri arasında görüş keçirilmiş, əməkdaşlıq istiqamətlərinə dair müzakirələr aparılmışdır.